***PEDAQOJİ EKSPERTİZA***
***ПЕДАГОГИЧЕСКАЯ ЭКСПЕРТИЗА***
***PEDAGOGICAL EXPERTISE***

*UOT 37.012.+37.011.*

***Gülər Natiq qızı Baxışova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/ 0009-0006-7932-413X*
*https://doi.org/10.69682/arti.2024.91(6).96-100*

# TƏHSİL SİSTEMİNDƏ PEDAQOJİ EKSPERTİZANIN ROLU

***Гюляр Натик гызы Бахышова***
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

# РОЛЬ ПЕДАГОГИЧЕСКОЙ ЭКСПЕРТИЗЫ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

***Gular Natig Bakhishova***
*doctorial student in the program of doctor of philosophy*
*of the Institute of Education of the Republic of Azerbaijan*

# THE ROLE OF PEDAGOGICAL EXPERTISE IN THE EDUCATION SYSTEM

**Xülasə.** Məqalədə müasir təhsil siyasətini uğurlu, keyfiyyətli təmin etmək üçün ekspertizanın əhəmiyyətindən bəhs edən mühüm əhəmiyyətə malik mövzu əksini tapıb. Təhsil mühitində ekspertiza sisteminin tətbiq edilməsi dövlətin müəyyən etdiyi strategiyanın səmərəliliyi və keyfiyyətliliyində mühüm rol oynayır. Bu məqsədlə, təhsilanların, təhsilverənlərin və təhsil müəssisələrinin daimi olaraq diqqətdə saxlanılması prioritet istiqamətlərdəndir. Təhsilin bu istiqamətdə fəaliyyəti üzrə müəyyənləşdirilmiş uğurlar, çatışmazlıqlar, tətbiq edilən yeni modellər və ekspertlər tərəfindən tövsiyə xarakterli rəylər təhsilin gələcək inkişafı və modernləşdirilməsində aktuallıq kəsb edir.
***Açar sözlər:*** *pedaqoji proses, təhsil strategiyası, pedaqoji ekspertiza, təhsil standartı, təlim texnologiyaları, ibtidai sinif*

**Аннотация.** В статье отражена тема, в которой говорится о важности экспертизы для обеспечения успешной и качественной современной образовательной политики. Применение системы экспертизы в образовательной среде играет важную роль в эффективности и качестве стратегии, определяемой государством.

С этой целью, одним из приоритетных направлений является постоянное внимание за студентами, преподавателями и образовательными учреждениями. Выявленные успехи, недостатки, примененные новые модели и экспертные мнения о деятельности образования в этом направлении актуальны в дальнейшем развитии и модернизации образования.
***Ключевые слова:*** *педагогический процесс, стратегия образования, педагогическая экспертиза, образовательный стандарт, технологии обучения, начальный класс.*

**Abstract.** The article addresses the critical importance of expertise in ensuring successful and high-quality implementation of modern education policies. The application of an expertise system in the educational environment plays a significant role in the effectiveness and quality of strategies defined by the state. To this end, maintaining consistent focus on learners, educators, and educational institutions is a priority area. Achievements, shortcomings, newly implemented models, and recommendations provided by experts in this field are highly relevant for the future development and modernization of education.
***Keywords:*** *pedagogical process, educational strategy, pedagogical expertise, educational standard, teaching technologies, primary school.*

Təhsil hər bir ölkənin prioritet istiqamətlərindən biridir. Dünyada təhsil sistemi daim dəyişkən, dinamik prosesdir. Bu istiqamətdə hər zaman əsaslı şəkildə tərəqqi baş vermişdi. Bunun da əsas səbəblərindən biri cəmiyyətlərin həyatındakı dirçəliş, elm, texnikada yeniliklərin yaranmasıdır. İnsanlar da mövcud tələblər nəticəsində təhsilli, bilikli, bacarıqlı mütəxəssis olmalıdırlar.

Qloballaşan dünyada sağlam, inkişaf etmiş cəmiyyətin əsasında təhsil durur. Təhsil hər bir dövlətin sosial-iqtisadi, siyasi, mədəni tərəqqisində mühüm rol oynayır. Bu istiqamətdə fəaliyyətləri inkişaf etdirmək, uğurlu, dünyagörüşü olan, müasir tələblərə uyğun, davamlı inkişafı təmin edən cəmiyyətin yaranmasına imkan yaratmaq üçün Azərbaycan dövləti qarşısında mütləq hədəflər müəyyənləşdirilmişdir. Bu hədəfləri, istiqamətləri həyata keçirmək üçün Prezident tərəfindən birbaşa diqqət göstərilmiş və mühüm sərəncamlar, sənədlər təsdiqlənmişdir.

Azərbaycan Respublikası Prezidenti 2013-cü il 24 oktyabr tarixində Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası adlı Sərəncam imzaladı. Strategiya 5 istiqamət üzrə təşkil olunmuşdu. Strategiyada müəyyənləşdirilmiş istiqamətlər üzrə müasir dövrün tələblərinə uyğun, beynəlxalq təcrübələrə əsaslanan yüksək səviyyədə təşkil olunmuş təhsil imkanlarının həyata keçirilməsi əksini tapmışdır. Əsas istiqamət təhsilin keyfiyyətliyinin və səmərəliliyinin təmin olunmasıdır. Azərbaycanın təhsil sistemində təhsilalanların və təhsilverənlərin müasir dövrün təhsil tələbləri üzrə inkişafının həyata keçirilməsi, yeniliklərin tətbiqi rəhbər tutulur. Bu məqsədi əsas tutaraq, təhsil müəssisələrində idarəetmə, müəllimlərin peşəsi üzrə yeni təlim texnologiyalarından istifadəsi, peşə biliklərinin daim artırılması və təhsilalanların yeni dövr və gələcək tələbatlara uyğun şəkildə yetişdirilməsi, təlim-təhsil alması ölkənin prioritet hədəfidir.

Ölkəmizin dünya təhsil sisteminə inteqrasiyası məqsədilə tətbiq edilən strategiyaların, texnologiyaların hansı səviyyədə reallaşdırılması, tətbiqi nəticəsində əldə olunan nəticələr, müsbət və mənfi təsiri, əldə olunan uğurlar, çatışmazlıqlar və bunların həll yollarının öyrənilməsi, aradan qaldırılması üçün də xüsusi fəaliyyət istiqamətləri vardır. Təhsil sferasınnda həyata keçirilən yeniliklərin keyfiyyətliyinin və nəticələrinin yoxlanması üçün monitorinqlərin, ekspertiza sistemlərinin yaradılması və bu istiqamətdə müvafiq işlərin həyata keçirilməsi təmin edilir. Təhsildə monitorinq, ekspertiza nəticəsində əldə olunmuş hesabatlara əsasən pedaqoji prosesin, tətbiq edilən yeniliklərin səmərəli şəkildə və yüksək keyfiyyətdə təmin edilməsi aktual məsələdir. Nəticədə keyfiyyət göstəricilərinin nəticələrinə uyğun olaraq yeni mexanizmlərin tətbiqi təmin edilir ki, bu da daha keyfiyyətli nəticələrin yaranmasını reallaşdırır.

Azərbaycan Respublikasının təhsil sistemində həyata keçirilən yeniliklərin, tətbiq edilən strategiyaların səmərəliliyini yoxlamaq üçün pedaqoji ekspertiza sistemindən də istifadə olunur. Bu istər məktəbəqədər təhsil müəssisələrində, orta məktəblərdə, istərsə də ali məktəblərin təhsil sistemində həyata keçirilir, bütövlükdə Azərbaycan təhsil sistemini əhatə edir.

Bəs ekspertiza, məqsədi, hədəfləri nədir? İlk olaraq, bu sözün mahiyyətinə aydınlıq gətirək. Ekspertiza – latın dilində “expertus” – “təcrübəli”, “ixtisaslaşmış” anlamını verir. Yəni, ekspertin, mütəxəssisin fəaliyyəti, araşdırılmış problem haqqında qiymətləndirməsi, qərar, rəy bildirməsidir. Ümumiyyətlə, ekspertiza istənilən sahə, istiqamət üzrə ixtisaslaşmış, bilikli, təcrübəli mütəxəssisin həyata keçirdiyi peşəkar araşdırma, qiymətləndirmə və müəyyən nəticələrin əldə edilməsi prosesidir. Bu proses nəticəsində qarşıya qoyulmuş hər hansı fəaliyyətin gələcək məqsədlər üçün perspektivliyi müəyyən edilir. Ekspertiza tibb, hüquq, təhsil və digər sahələr üzrə tətbiq edilə bilər. Bu fəaliyyət sahələrindən biri də pedaqoji ekspertizadır.

Pedaqoji ekspertiza təhsildə keyfiyyətin, mobilliyin, səmərəliliyin artırılmasına və bu sahədə mövcud nöqsanların, yaranmış problemlərin aradan qaldırılmasına və səmərəli təhsil prosesinin həyata keçirilməsinə xidmət edir. Müasir təhsil sistemində həyata keçirilən strategiyaların, müəllimlər tərəfindən tətbiq edilən metodların, müəllim-şagird münasibətlərinin, istifadə edilən dərs materiallarının, həyata keçirilən yeniliklərin hansı səviyyədə reallaşdırılmasını göstərən ölçü meyarı da adlandıra bilərik. Təbii ki, bu zaman əsas hədəf şagirdlərin həyati əhəmiyyətli əsas bacarıqların yaranmasına və inkişafına dəstək olmaqdır. Buna görə də, təhsil

sisteminin ekspertizası üçün bir sıra aspektləri nəzərdən keçirək:

1. Təhsilin hər pilləsi üçün tədris proqramlarının, müəyyən edilmiş dərs vəsaitlərinin, materiallarının təhsilin qarşıya qoyulmuş məqsədə çatmaq üçün nə dərəcədə uğun olmasının təyin edilməsi, qiymətləndirilməsi araşdırılır.

2. Təhsil müəssisələrinin ( bağça, məktəb, peşə məktəbləri, universitetlər və s.) fəaliyyətinin, idarə edilməsinin yoxlanılması.

3. Təhsil sistemində pedaqoji proses zamanı istifadə edilən təlim metodları, texnologiyalarının tətbiqi. Bu zaman bir sıra mühüm xüsusiyyətlərin müəllim tərəfindən nəzərə alınması əhəmiyyətlidir.

4. Təhsil siyasəti nəticəsində yeniliklərin, müasir strategiyaların, yeni qərarların tədris prosesinə uyğunluğu, təsiri qiymətləndirilir.

5. Təhsilalanların öyrənməsi, inkişafı, fəaliyyətlərinin məhsuldarlığının dəyərləndirilməsi həyata keçirilir.

Qeyd edilən tələblərin hər biri müasir təhsil sistemində təhsilalanların və təhsilverənlərin dövlət tərəfindən müəyyən edilmiş təhsil strategiyalarının yerinə yetirilməsinə xidmət edir. Burada əsas məqsəd məktəblərdə və digər təhsil müəssisələrində şagirdlərin müasir təhsil sisteminin əsas tələblərindən biri olan şagirdyönlülük prinsipinin rəhbər tutulmasıdır. Keçmiş təhsil sistemində müəllimyönümlü əsas prinsip idisə, hazırda müasir təhsil, tələblər şagirdin ön planda olmasını əsas tutur. Eyni zamanda burada müəllim fasilitator rolunda çıxış edir.

Təhsil strategiyasının gözləntilərə əsasən həyata keçirilməsinin müəyyənləşdirilməsi zamanı diqqət yetirilməli hədəflərdən biri də təhsil, təlimdə pedaqoji prosesin dövlət proqramına əsasən reallaşdırılması və hansı səviyyədə təmin edilməsini müəyyənləşdirməkdir.

Təhsil sistemində sadalanan aspektlərin həyata keçirilməsini və əldə edilən nəticələrin gözlənilən nəticələrə nə dərəcədə uyğun olması, və ya əksini araşdırmaq, müəyyənləşdirmək üçün pedaqoji ekspertizanın təşkilinə üstünlük verilir. Bu zaman əldə edilən nəticələrin adekvatlığına, şəffaflığına, qərəzsiz həyata keçirilməsinə diqqət yetirilməlidir. Pedaqoji ekspertizanının nəticələri hər hansı müəssisə ilə yekunlaşmır. Bu istiqamət üzrə əldə olunmuş nəticələr dövlətin, cəmiyyətin təhsil sahəsində irəliləyişləri, həyata keçirilmiş islahatların keyfiyyətliyini, səmərəliliyini, müsbət və mənfi cəhətlərinin, ümumilikdə təhsil müəssisələrində həyata keçirilən idarəetmənin şəffaflığını müəyyənləşdirməkdə ekspertiza mühüm rol oynayır.

Pedaqoji ekspertiza zamanı keyfiyyətli, davamlı, dayanıqlı təlim, təhsil üçün pedaqoji proses zamanı ekspertlərin müşahidə etməli olduqları vacib meyarlar var. Bu meyarları nəzərdən keçirək.

-Təlim, təhsil prosesi zamanı pedaqoji fəaliyyətin keyfiyyət və səmərəliliyinin ekspertlər tərəfindən izlənilməsi:

- Ekspertlər tərəfindən pedaqoji prosesin idarəetmə və təşkilati istiqaməti üzrə prosesləri nəzərdən keçirmək, müvafiq fəaliyyətlərin müsbət və mənfi cəhətlərinin qeyd edilməsi:
- Müəllimin peşəkar fəaliyyəti, pedaqoji ustalığı, səriştəliliyi və peşəkar inkişafı üzrə nəzarətin həyata keçirilməsi, qiymətləndirmə və gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi
- Təhsil sistemində dövlət təhsil strategiyasının müəyyən etdiyi yaradıcı düşüncəni inkişaf etdirən, pedaqoji proses zamanı şagirdlərin fəal inkişafını təmin edən yeni təlim texnologiyalardan, fəal-interaktiv təlim metodlarından istifadənin tədris prosesinə təsirinin nəticələrinin ekspertlər tərəfindən izlənilməsi və problemlərin müəyyənləşdirilməsi istiqamətində tədbirlərin görülməsi həyata keçirilir.
- Şagirdlərin və digər təhsilalanların təhsildəki nailiyyətlərinin ölçülməsi, onların müəyyən edilmiş müvafiq dövlət standartları tələblərini yerinə yetirdiyini və ya qarşıya çıxan problemlərin müəyyənləşdirilməsi ekspert tərəfindən həyata keçirilir. Bu fəaliyyət zamanı aşkar olunmuş problemlərin həll edilməsi təhsilalanların daha yaxşı öyrənməsinə, fəaliyyətinə və inkişafına imkan yaratmış olur.

Təhsil sistemindəki bu meyarların uğurla yerinə yetirilməsi, qarşıya çıxan problemlərin həll edilməsi təhsil sistemindəki ahəngdar fəaliyyətin əsasını təşkil edir. Ekspertlər tərəfindən pedaqoji ekspertizanın reallaşdırılması təhsilin müasir tələblərə uyğun, dövlətin müəyyənləşdirdiyi strategiyanın təmin edilməsini, qarşıda duran tələblərin uğurla yerinə yetirilməsinə xidmət edən vasitədir.

Pedaqoji mühitdə ekspertizanı həyata keçirən ekspert kimlərdir? Ekspertlər müəyyən sahə üzrə geniş, əhatəli biliyə, təcrübəyə malik

olan, ədalətli, şəffaf şəkildə qiymətləndirməni həyata keçirən, analiz, təhlil etmək bacarığına malik olan və bu keyfiyyətlər əsasında təkmilləşdirməni, keyfiyyəti təmin etməyə kömək edən əsas şəxslərdir. Bu şəxslər məktəblərdə, ali təhsil müəssisələrində, ümumiyyətlə, təhsil sahəsində mühüm fəaliyyətləri, təcrübələri olan müəllimlər, məktəb idarəçiləri, akademiklərdir.

Ekspertiza tədris sahəsində təcrübənin öyrənilməsi, müəllimlərin xüsusi bilik formalarını, bacarıqlarını və pedaqoji qərarlar qəbul edərkən onların idrak proseslərini daha yaxşı görməyə imkan yaradır.

Belə ki, pedaqoji ekspertizanın təşkili əsasən tədrisin keyfiyyətinin təkmilləşməsinə, tətbiq edilən metodların, strategiyaların öyrənmə, təlim, tərbiyə prosesinə nə qədər faydalı olduğunu və nə dərəcədə səmərəli olub-olmadığını, yaranmış nöqsanların aradan qaldırılmasına və nəticədə təhsilin səmərəliliyinin, keyfiyyətinin artırılmasına şərait yaradır.

Tədrisin ekspertizası hər dövr üçün aktual olan prosesdir. Çünki nəticədə hər bir dövlətin, məktəbin əsas hədəfi hər bir vətəndaşını yüksək səviyyədə təşkil olunmuş, müasir dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək, baş verən yenilikləri ən rahat üsulda şagirdlərə təqdim etmək və bu səbəbdən müvafiq səylər göstərməkdir.

Pedaqoji ekspertiza elmi tədqiqat metodlarına aid olan, məktəblərdə, siniflərdə ekspertlər tərəfindən aparılan tədqiqatın yalnız təhsil subyektinin fəaliyyətini, onun mənfi və müsbət cəhətlərini qiymətləndirməklə yekunlaşmır, əldə olunan nəticələr əsasında təhsilin, təlimin gələcək inkişafı üçün, innovativ texnologiyaların tətbiqi üçün plan və proqnoz tərtib etməkdə əhəmiyyətli rol oynayır.

İbtidai siniflərdə dərsin ekspertizası zamanı ekspertlər sadəcə bir və ya bir neçə fəaliyyət üzrə deyil, dərsin kompleks şəkildə müşahidə edilməsinə və qiymətləndirilməsinə diqqət yetirilməlidir. Bunun üçün tədris prosesindəki bir neçə məqamlara diqqət yetirmək lazımdır:

-tədris prosesində istifadə edilən proqram;

-tədrisin təşkili zamanı metodlardan istifadə;

-müəllimin tədris prosesində fəaliyyəti;

-innovativ pedaqoji texnologiyalardan istifadə;

-şagirdlərin təhlükəsiz, sağlam təhsil məkanında öyrənmə fəaliyyəti;

-interaktiv metodların tətbiqi;

-tədris prosesində istifadə edilən dərs vəsaitləri, informasiya resursları;

-təlimin müəllim-şagird və şagird-şagird münasibətlərinə əsaslanması;

-dərs zamanı təhsil, təlim və tərbiyə anlayışlarının qarşılıqlı tətbiqi;

-müəllimin şagirdləri obyektiv, düzgün, qərəzsiz qiymətləndirməsi;

-müəllimin sinfi idarəetmə bacarığı, nəzəri və praktiki biliklərin, peşə səriştəliliyinin olması.

Tədris prosesi zamanı ekspertlər tərəfindən yuxarıda sadalanan fəaliyyətlərin tətbiqi, hansı səviyyədə reallaşdırılması, ölkə səviyyəsində tətbiq olunan strategiyaların, proqramların qiymətləndirilməsi, müsbət cəhətlərinin, qarşıya çıxan nöqsanların yoxlanılması, təhlillər aparılması və nəticəyə uyğun gələcək fəaliyyət planlarının yaradılması həyata keçirilir.

Ümumiyyətlə, pedaqoji prosesin ekspertizası həyata keçirilərkən yalnız tədris prosesində iştirak edən şəxslər deyil, ekspertlər də mühüm akademik biliklərə malik olmalı, daim yeniliklərlə tanış olmalı, müasir bilikləri, bacarıqları tətbiq etməyi bacarmalı, qiymətləndirmə meyarlarını qərəzsiz, obyektiv həyata keçirməli və yalnız bir neçə fəaliyyəti deyil, əhatəli şəkildə ümumi nəticə çıxarmağı bacarmalıdır. Əgər bütün bunlar yerinə yetirilməzsə, ekspertiza uğurla nəticələnməz və gələcək təhsil sisteminə köklü şəkildə mənfi təsir edəcək bir sıra problemlərlə nəticələnə bilər.

**Tədqiqat sualı.** İbtidai siniflərdə pedaqoji ekspertiza zamanı hansı nəticələr əldə olunacaq? Tətbiq edilən metodlar, yeniliklərin ekspertlər tərəfindən qiymətləndirilməsi? Həyata keçirilən ekspertiza zamanı tətbiq edilən təhsil proqramının nə dərəcədə uğurlu olması və ya özünü doğrultduğunu müəyyən edəcək?

**Tədqiqatın məqsədi.** Təhsil sistemində tətbiq edilən proqramların, strategiyaların obyektiv şəkildə yoxlanılması və müasir dünya təhsil sisteminə inteqrasiyanın faydaları, nöqsanlarının araşdırılması və ya yeni interaktiv metodların tədris prosesində istifadəsi, ən əsası tətbiq edilən yeniliklər inkişafa nail olmalıdır.

**Tədqiqatın vəzifələri.** İbtidai siniflərdə pedaqoji ekspertiza zamanı istifadə edilən metodların yararlılığı, müəllimin bilik, bacarıqlarının müəyyənləşdirilməsi, peşə fəaliyyətində səriştəliliyinin yoxlanılması, istifadə edilən tədris proqramının, metodik vəsaitlərin, didaktik mate-

rialların faydalılığının yoxlanılması, təhlili və qiymətləndirilməsi həyata keçirilir.

**Tədqiqatın elmi ədəbiyyatda işlənmə səviyyəsi**. Bu sahədə professor Akif Abbasovun araşdırmaları var. Rusiya və ingilis dillərində olan məqalələri nümunə kimi qeyd etmək olar.

**Gözlənilən nəticələr.** Əsas hədəf təhsil sisteminin inkişafı, təkmilləşdirilməsi, ibtidai sinif şagirdlərinin bilik və bacarıqlarının formalaşdırılması, ənənəvi təhsildən fərqli olaraq interaktiv təlim metodlarının tətbiqi zamanı uğurlu nəticələrin əldə edilməsi, şagird- müəllim arasında qarşılıqlı əməkdaşlığın tətbiqinə nail olunması, avtoritar təhsil mühitindən uzaqlaşaraq, demokratik, şagirdlərin özlərini rahat şəkildə ifadə edə biləcəkləri mühitin formalaşdırılmasına nə dərəcədə nail olacağımızı bilməliyik.

**Problemin aktuallığı**. Müasir dövrdə dünyada təhsil sahəsində tətbiq edilən yeniliklərin, təhsil müəssisələrinin idarəetmə sistemi, pedaqoji proses zamanı həyata keçirilən yeni öyrətmə üsullarının, metodlarının, təhsilalanların qlobal cəmiyyətin tələblərinə uyğun, yaradıcı, bilikli, şəxsiyyətyönlü inkişafının düzgün şəkildə təmin edilməsində ekspertiza əhəmiyyətli rol oynayır.

**Problemin elmi yeniliyi**. Təhsil sistemində həyata keçirilən ekspertiza nəticəsində pedaqoji prosesin əhatəli təhlili, keyfiyyətliliyin yoxlanması, Dövlət Strategiyasının uğurlu təmin edilməsi üçün ekspertlər tərəfindən müvafiq tövsiyələrin, rəylərin verilməsi və nəticəyə uyğun fəaliyyətin tətbiq edilməsidir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə ekspertiza ilə bağlı əhəmiyyətli məlumatlar, təhlil və nəticələr bu sahədə geniş fəaliyyət üçün praktik əhəmiyyətə malikdir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı
2. Abbasov, A.N. Pedaqogika: Dərs vəsaiti. / A.N. Abbasov. – Bakı: Mütərcim, -2015, -360 s.
3. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərs vəsaiti. / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. -Bakı: Mütərcim, -2022.
4. Иванов, Д.А., Экспертиза в образовании, Учебное пособие для студентов высших педагогических учебных заведений, / Д.А. Иванов Москва,«Академия», 2008.

**E-mail:** baxisovaguler@gmail.com
**Redaksiyaya daxil olub:**27.11.1024